*© "Metafizika" Journal* | *AcademyGate Publishing*
*Vol 7, issue 1, serial 25, 2024. pp.132-147* | *p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UOT:** 327.
**KBT:** 63.3(2)6-4
**DOI:** 10.33864/2617-751X.2024.v7.i1.132-147
**MJ №** 203

# "Böyük Ermənistan" xülyasının reallaşdırılması yolunda "məzlum erməni xalqı"nın azərbaycanlılara qarşı törətdiyi 31 mart soyqırımı

**İradə Nuriyeva***

**Abstrakt.** Erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasətinin 200 ildən artıq tarixi var. Bu məkrli siyasətin məqsədi azərbaycanlıların öz tarixi torpaqlarından qovulması və bu ərazilərdə mifik "Böyük Ermənistan" dövlətinin yaradılması idi. 1918-ci il martın 31-də Daşnaksütyun partiyasının rəhbərliyi altında Sovet Rusiyasının Qızıl Ordusunun köməyi ilə Bakının azərbaycanlı əhalisi soyqırıma məruz qaldı. Bakının məhəllələrin birində qulaqları və burnu kəsilmiş, eləcə də qarınları yarılmış 57 müsəlman qadının meyiti tapılmışdır. Ermənilər insanları diri-diri su quyularına, yanan təndirlərə, neft quyularına atır, hamilə qadınların qarınlarını süngü ilə yarır, uşaqları süngü ilə qətlə yetirir, körpələri divara mismarlayır, azyaşlı qızları, gənc və yaşlı qadınları təcavüz edirdilər. Onlar kişiləri başı aşağı ayaqlarından asır, onları qılıncla yarıya bölür, bəzilərini taxta çarpayılara çarmıxa çəkir, xalça və kilimlərə sarıyıb diri-diri yandırır, insanların əllərini və ayaqlarını kəsir, süngü altında öz ətlərini yeməyə məcbur edirdilər. Vəhşi erməni quldur dəstələri müsəlman din xadimlərini İslamın müqəddəs kitabı olan Quranlardan alovlandırılan tonqallarda yandırıblar. Bu, "öz müqəddəratını təyinetmə", "muxtariyyət hüququ" və "soyqırım" barədə yüksək səslə qışqıran erməni millətçilərinin əsl siması, namərdliyi və alçaqlığı idi. Uşaqların çıxarılmış gözlərindən "boyunbağı" düzəldən Andranikin və digər ermənilərin vəhşiliklərinin həddi-hüdudu yox idi. 1918-ci il mart ayında Bakıda 20 minədək, 1917-1920-ci illərdə isə Azərbaycan ərazisində 400 mindən çox azərbaycanlı ermənilər tərəfindən "soyqırım"a məruz qalmışdır. Dünya bu vəhşiliklərə göz yumduqca onun sayı artır.

---

* Siyasi elmlər üzrə elmlər doktoru, professor,
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti; Bakı, Azərbaycan
E-mail: iradanuri@gmail.com
https://orcid.org/0000-0002-5309-0009

**Məqaləyə istinad:** Nuriyeva, İ. [2024] "Böyük Ermənistan" xülyasının reallaşdırılması yolunda "məzlum erməni xalqı"nın azərbaycanlılara qarşı törətdiyi 31 mart soyqırımı. *"Metafizika" jurnalı, 7*(1), səh.132-147.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.132-147

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 20.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 12.02.2024*
*Çapa qəbul edilmişdir: 29.02.2024*

**Açar sözlər:** 31 mart azərbaycanlıların soyqırımı, erməni vəhşiliyi, uşaqların gözlərindən "boyunbağı", mifik "Böyük Ermənistan" dövləti

## 1.Giriş

Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalçılıq müharibəsinin tarixi kökləri Sərq məsələsinin bir hissəsi olan erməni məsələsinə gedib çıxır. Rusiyanın himayəçiliyi altında erməni dövlət qurumunun yaradılması, həmçinin ermənilərin İran və Osmanlı Türkiyəsindən Rusiyanın işğal etdiyi ərazilərə köçürülməsi təsadüfi deyil, erməni-rus münasibətlərinin nəticəsi idi ki, bu münasibətlərin kökündə əsasən Şərqin müsəlman dövlətlərinə, xüsusilə, Osmanlı Türkiyəsinə, XVIII əsrdən başlayaraq isə Azərbaycana qarşı düşmən münasibətlər dururdu. Ermənilərin Azərbaycan torpaqlarına, xüsusilə də Dağlıq Qarabağa olan iddiaları onların "Böyük Ermənistan" xülyasını həyata keçirməyə yönəlmiş strateji planlarının tərkib hissəsidir. Ermənilər, öz "ənənələrinə" sadiq qalaraq, əlverişli tarixi şərait yaranan kimi bu məkrli planlarının reallaşdırılması uğrunda mübarizəyə başlamışlar. 200 ildən çoxdur ki, erməni şovinistləri və millətçiləri tərəfindən azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirilirdi.

## 2.Rusiya-Osmanlı münasibətlərində "erməni məsələsi"

Dəfələrlə siyasi iflasa məruz qalmalarına baxmayaraq, ermənilər öz məqsədlərindən əl çəkmirdilər, erməni teokratiyası isə xüsusi canfəşanlığı ilə fərqlənirdi. 1904-cü ildə katolikos Hayrik Xrimyan yepiskoplar O.Sarançyan və S.Ayvotyanı Avropa dövlətlərinin qapılarına minnətə göndərdi. Fransa prezidenti Lyupe *"lazım gələrsə Xarici İşlər Nazirliyi müvafiq tədbirlər görəcək"* deyə cavab verir. İngiltərə kralı VII Eduard təhrikçiləri, ümumiyyətlə, qəbul etməkdən imtina etdi və ABŞ prezidenti Ruzvelt *"onun erməni fırıldaqçıları kifayət qədərdir"* deyə bildirdi [Nuriyeva, 2021, s.171]. 1907-ci ildə bütün Avropa dövlətlərinin rəhbərləri katolikosun elçiləri ilə görüşməkdən imtina etdilər. Lakin, tezliklə, dünyada siyasi vəziyyət dəyişdi və ermənilərin əlinə fürsət keçdi. Avropada müharibə şəraiti yetişdi. Rusiya Almaniya, o cümlədən, onun müttəfiqi - Osmanlı ilə müharibənin qaçılmaz olduğunu anladı. Ancaq güclü dövlətlərlə döyüş yaxşı nəticə vermədi. Onları daxildən zəiflətmək lazım idi. Osmanlı Türkiyəsində belə bir mənbə ermənilər idi. Buna görə də Rusiya ermənilərə qarşı siyasətini kəskin şəkildə dəyişdirdi. 1912-ci ildə Nazirlər Kabinetinə verdiyi memorandumda Xarici İşlər Naziri S.D.Sazonov dedi: *"Əgər almanlara və türklərə ermənilərsiz Ermənistan lazımdırsa, əgər onlar bizim müsəlmanlarımızla kürdlər və türklər arasında olan səddi məhv etmək istəyirlərsə, Rusiyanın vəzifəsi nə olursa olsun türklər və kürdlər və tatarlarımız (azərbaycanlılar) arasında bu səddin yenidən qurulmasıdır"* [Лазарев, 1972, s.241]. Rusiya Dövlət Duması

da öz mövqeyini gizlətmədi: *"Rusiya həyati maraqlarına və xarici siyasətinə görə erməni məsələsinin tez və qənaətbəxş həllinə çalışır"* [28]. 1912-1913-cü illər Balkan müharibəsinin sonunda Rusiyanın tələbi ilə Osmanlı hökuməti islahatlar barədə saziş imzalamaq məcburiyyətində qaldı, bu sazişə görə ermənilər idarəetmə, dil və hərbi xidmət sahələrində olduqca geniş muxtariyyət almalı idilər. İslahatlara nəzarəti böyük dövlətlər, ilk növbədə, Rusiya imperiyası həyata keçirməli idi [Кузнецов, 1997, s.436]. Bu razılaşma ilə Rusiya Osmanlının mövqeyini sarsıtdı, lakin, digər tərəfdən onun "erməni məsələsi"nin inkişafından ehtiyat etməsi əsassız deyildi.

Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov və Xarici İşlər Naziri S.D.Sazonov, erməni üsyanının Osmanlı imperiyasından Cənubi Qafqaza, o cümlədən, Rusiyanın "müsəlman quberniyalarına" yayılmasının təhlükəsini qeyd etdi [Лазарев, 1972, s.242]. Rusiya "erməni məsələsini" manipulyasiya edərək açıq şəkildə bildirdi: *"Bizə ermənilər yox, Ermənistan (Türkiyə Ermənistanı) lazımdır"* [28; Чалхулиян, 1905, s.3]. Öz növbəsində, erməni rəhbərləri öz siyasi maraqları baxımından Avropanın güc dövlətlərinin himayədarlığını qəbul etdilər. Beləliklə, Birinci Dünya Müharibəsi dövründə, 1915-ci ilin mayında Rusiya Kiçik Asiyanın işğal etdiyi hissəsində öz himayəsi altında "erməni dövləti"ni – qondarma "Van Respublikası"nı yaratdı. Lakin, Rusiya öz mövqeyini saxlaya bilmədi, çünki, mövcud vəziyyətdə ermənilər Rusiyanın himayəsindən imtina etdilər və ona xəyanət etdilər. Vəziyyəti dəyərləndirən "Daşnaksütyun" könüllülərə - ermənilərə xəbərdarlıq etdi: *"Heç bir halda ruslardan aldığımız silahları təslim etməməliyik, çünki, Rusiya "ermənilərə muxtariyyət" verməkdən imtina etdiyi təqdirdə "Rusiya hökuməti ilə mübarizə aparmaq üçün hazır silahlı heyətimiz olmalıdır""* [29]. Rusiyanın dəstəyindən məhrum olan "Van Respublikası" 1915-ci ilin iyulunda süqut etdi. Rusiyanın bu dövrdə başqa narahatlıqları da var idi və ona görə də "erməni problemini" unutdu. İki cəbhədə gedən döyüşlərdən zəifləyən Rusiya ordusu işğal etdiyi Osmanlı ərazilərindən geri çəkilməyə məcbur oldu. Üsyan etdikləri üçün cəzadan qaçan ermənilər Suriya, Mesopotamiya, Misir və dünyanın digər ölkələrinə qaçdılar. 1915-1916-cı illərdə yol boyu türkləri və kürdləri qıran 300 mindən çox erməni geri çəkilən rus ordusunun tərkibində Cənubi Qafqaza, əsasən də Azərbaycan torpaqlarına qaçdılar [30; 32; Zeynalova, 2004, s.11]. Bu vəhşiliklər 1918-ci ilin aprelinə qədər, Osmanlı ordusu öz vilayətlərini Andranikin "daşnak" cəza dəstələrindən tamamilə azad edənə qədər davam etdi [Zeynalova, 2004, s.13].

**3.31 mart soyqırımı-insanlığın faciəsi**

Erməni qaçqınları ilə qoşunlar Cənubi Qafqaza üz tutdular. Rusiyada bolşeviklər hakimiyyətə gələndə "daşnak" dəstələrinin bir çox komandirləri Qırmızı Ordunun tərkibinə daxil oldular. V.İ.Leninin göstərişi ilə və

bolşeviklərin dəstəyi ilə Bakıda hakimiyyəti S.Q.Şaumyanın başçılıq etdiyi Bakı Komissarları Soveti əlinə aldı. Deməк olar ki, Azərbaycanın paytaxtında hakimiyyət “əks-inqilabçılara qarşı mübarizə” adı altında dərhal azərbaycanlıları qırmağa başlayan erməni millətçilərinə məxsus idi. Beləliklə, 1918-ci ilin martında Daşnaksütyun partiyasının başçılığı altında Sovet Rusiyasının Qırmızı Ordusunun köməyi ilə Bakının azərbaycanlı əhalisi soyqırıma məruz qaldı [Nuriyeva, 2021, s.173]. Bu soyqırımın nəticəsində Bakıda 16 min insan öldürüldü. Bu hadisələr ərəfəsində, Rusiya imperiyasının dağılmasından sonra Müsavat partiyası və Azərbaycan xalqının geniş kütləsi Azərbaycana muxtariyyət verilməsini tələb etdi. “Bakı kamissarları”nın muzdlu rəhbəri S.Q.Şaumyan Azərbaycana muxtariyyət verilməsinin əleyhinə çıxdı. “Bakınskiy raboçiy” qəzeti V.İ.Leninin S.Q.Şaumyana göndərdiyi 15 mart 1918-ci il tarixli məktubunu dərc etdi. Məktubda o, S.Q.Şaumyanı “millətlərin və xalqların bərabərliyi və öz müqəddəratını təyinetmə hüququ”nu və muxtariyyət ideyalarını tanımadığı üçün kəskin tənqid etdi [Ленин, 1964, s.233-236]. RK(b)P Mərkəzi Komitəsinin rəhbərləri S.Q.Şaumyanın etirazlarını tənqidlə qarşıladılar. S.Q.Şaumyan və P.Caparidzeyə ünvanlanmış 1918-ci il 19 mart tarixli məktubda deyilirdi: *“Əgər müsəlmanlar muxtariyyət tələb edirlərsə, bu onlara verilməlidir”* [Ратгаузер, 1927, s.140]. Lakin, S.Q.Şaumyan RK(b)P-nin göstərişlərini birbaşa yerinə yetirməsinə baxmayaraq, əsl erməni millətçisi kimi Azərbaycan xalqının “öz müqəddəratını təyinetmə” tələbini “Azərbaycan millətçilərinin” Bakını “Azərbaycan xanlığının paytaxt”ı etmək “arzusu” adlandırdı” [Шаумян, 1978, s.257]. Millətçi S.Q.Şaumyanın V.İ.Leninin rus qoşunları tərəfindən işğal edilmiş Osmanlı imperiyasının ərazisində ermənilərə muxtariyyət verilməsi haqqında fərman imzalamasını təmin etməsi təəccüblü deyil [*Декреты Советской власти*, s.298-299]. Bu fərmana əsasən, S.Q.Şaumyan erməni təşkilatlarına *“məzlum erməni xalqının əsrlər boyu gözlədiyi milli ideyaların həyata keçirilməsinə”* kömək edəcəyini vəd etmişdir [Балаев, 1990, s.12].

Beləliklə, 1918-ci ilin martında Bakı ilə Tiflis arasındakı dəmir yolunun bağlanması ilə əlaqədar şəhərdə İran və Qərb cəbhələrindən qayıdan və Qafqaz cəbhəsinə gedən əsgərlər – bir neçə min silahlı erməni toplandı. Ermənilərin qabaqcadan aparılan danışıqlarına əsasən, Daşnaksütyun partiyasının yaxşı silahlanmış min nəfər hərbiçisi Bakıya tərəf tələsdi. Bundan əlavə, Bakıda qərargah rəisi keçmiş çar ordusunun polkovniki, Daşnaktsütyun partiyasının üzvü Z.Avetisyan olan, 3-cü briqadasının komandiri – dinc Azərbaycan əhalisi üzərində vəhşiliyi ilə məşhur həmpartiyalı Amazasp olan Qırmızı Ordunun qoşunları vardı. Daha bir erməni – daşnak Qırmızı Ordu hissəsinin rəhbəri idi. Beləliklə, təkcə erməni

milli birləşmələri deyil, həm də Bakıdakı Qırmızı Ordu hissələri də Xəzər donanmasının və aviasiyasının dəstəyi ilə əsasən Daşnaksütyun partiyasının nəzarəti altında idi. Erməni hərbi qüvvələri ilə müqayisədə Bakıdakı azərbaycanlıların qüvvələri cüzi idi. O vaxt azərbaycanlıların Bakıda və onun ətrafında böyük hərbi hissələri yox idi. Bundan əlavə, qırğına başlamaq üçün bəhanə lazım idi və martın 29-da Birinci Dünya Müharibəsinin qəhrəmanları – məşhur “Vəhşi diviziya”nın “Evelina” gəmisi ilə Lənkəranda silahını təmizləyərkən təsadüfən açılan güllə nəticəsində həlak olan silah yoldaşları – H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin nəşini general-mayor Mir İbrahim bəy Talışinski başda olmaqla Bakıya gətirən bir qrup zabit və əsgərinin tərksilah edilməsi bu bəhanəni ermənilərə verdi [Qasımlı, 2014, s.396]. Azərbaycan birləşmələrinin tərksilah edilməsi Bakı əhalisinin yalnız qəzəb və narazılığına səbəb oldu, nəticədə, martın 30-da səhər xalq alınan silahların qaytarılmasını tələb edərək küçələrə çıxdı. Mitinqlər dinc xarakter daşıyırdı. Bu mitinqlərin birində erməni təxribatçıları dinc əhaliyə qarşı genişmiqyaslı hərbi əməliyyat başlatmaq üçün bəhanə kimi çıxış edən etirazçılara qarşı təxribat xarakterli atəş açdılar. Bu hadisələri N.Nərimanov belə təsvir edirdi:

> *“... Başlanmış atışma sürətli, lakin, amansız döyüş üçün qığılcım rolunu oynadı. Müsəlman Milli Şurasının dəstələri və daşnak dəstələrindən ibarət olan Bakı Sovetinin birləşmiş qüvvələri arasında baş vermiş bu döyüşdə 20 mindən artıq adam iştirak etmişdir. Bakı Sovetinin birləşmiş qüvvələri döyüşlərin qurtarması ilə kifayətlənməyib silahsız azərbaycanlıları öldürməyə başlamışdılar ... O zaman Bakıda ancaq daşnaklardan ibarət olan çoxsaylı erməni hərbi milli hissəsi yerləşirdi”* [Nərimanov, 2016, s.54-55].

“Naş qolos” menşevik qəzeti yazırdı: “Azərbaycanlıların qətliamı dəhşətli idi”. Azərbaycan məhəllələrini təyyarələr bombalayır, Xəzər donanmasının gəmiləri isə hədəf atəşinə tuturdular. Bakıdakı qırğın dəhşətli idi, vəhşicəsinə həyata keçirilirdi, buna yalnız ermənilər qadir idilər. Çaşqın və dəhşətli hadisə şahidləri xatırlayırdılar: “Yaxın kəndlərdə qırğınlar həyata keçirən erməni daşnaklarının dəstələri səhər tezdən Bakı şəhərinə girdilər. Əvvəlcədən hazırlanmış bir plana əsasən, ermənilər 10-15 nəfərlik bir çox dəstələrə bölünərək küçələrə səpələndilər, qorxuya düşmüş insanları evlərdən və zirzəmilərdən çıxarıb qılıncdan keçirirdilər, güllələyir və yandırırdılar. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində qeyd olunurdu ki, Bakıda məhəllələrin birində torpağın altından qulaqları, burunları kəsilmiş, qarınlarını yırtılaraq vəhşicəsinə qətlə yetirilmiş 57 müsəlman qadınının və qızın meyidi tapılmışdır [Abışov, 2017, s.8]. Ermənilər insanları diri-diri su quyularına, yanar təndirlərə, neft quyularına atırdılar, hamilə qadınların qarınlarını süngü ilə yarırdılar, uşaqları süngülərə keçirərək öldürürdülər,

körpə uşaqları divarlara mismarlayırdılar, qadınları saç-saça bağlayaraq küçələrdə çılpaq gəzdirirdilər [Qasımlı, 2014, s.397], qadınlar, azyaşlı qızlar və yaşlı qadınlar təcavüz edilirdilər. Bu vəhşiliklər gücsüz, silahsız kişilərin gözü qarşısında həyata keçirilirdi. Bundan sonra hamını talan edilən bir evdə toplayaraq yandırdılar. Ermənilər kişiləri başı aşağı ayaqlarından asırdılar və heyvan döyüşündə olduğu kimi onları qılıncla yarıya böldülər, bəzilərini taxta çarpayılara çarmıxa çəkirdilər, sonra xalça və kilimlərə sarıyıb diri-diri yandırırdılar. Onlar İslamın müqəddəs kitabı olan Quranlardan alovlandırılan tonqalların atəşinə müsəlman din xadimlərini atıb yandırırdılar.

Erməni vəhşiliklərinin həddi-hüdudu yox idi. İnsanların əllərini və ayaqlarını kəsir, süngü altında öz ətlərini yeməyə məcbur edirdilər. Erməni daşnaklarının və yerli ermənilərin həmrəyliyi hər yerdə mövcud idi. Bu vəhşiliklər azərbaycanlıların qətllərini böyük zövqlə izləyən və məmnuniyyətdən ucadan qışqıraraq əl çalan yerli ermənilərin gözü önündə baş verirdi. İnsani hisslərdən məhrum olan erməni qatilləri İçərişəhərin qapısı yaxınlığında içərisində 2 minədək yaralı və xəstə azərbaycanlı, rus, ləzgi və yəhudi olan bir evi mühasirəyə aldılar. Amazaspın əmri ilə ermənilər evə kerosin tökərək içəridə gizlənənlərin hamısını atəşə tutdular. Heç kim alovdan çıxa bilmədi, 2 min insan kül oldu [Mansurov, 1991, s.130-131]. Qısa müddət ərzində Bakıda 20 minədək azərbaycanlı öldürüldü [31]. Bir müddətdən sonra S.Q.Şaumyan etiraf edirdi: “Fürsətdən istifadə edərək, süvari dəstələrimizə ilk silahlı basqından sonra bütün cəbhə boyu hücuma keçdik ... Artıq silahlı qüvvələrimiz var idi – təxminən 6 min nəfər. “Daşnaksütyun”nun bizim sərəncamımızda olan 3-4 min milli birliyi var idi. Sonuncuların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri qazandırdı, amma bunun qarşısını almaq mümkün deyildi. Biz bunu düşüncəli surətdə etdik. Əgər onlar Bakıda üstünlük qazansaydılar, şəhər Azərbaycanın paytaxtı elan ediləcəkdi [Шаумян, 1978, s.246]. Bu, “öz müqəddəratını təyinetmə”, “muxtariyyət hüququ” və soyqırım barədə yüksək səslə qışqıran erməni millətçilərinin əsl siması, kələkbazlığı, namərdliyi və alçaqlığı idi. Azərbaycanlıların kütləvi qırğını bununla da bitmədi. Asan qələbədən ilhamlanan Amazaspın rəhbərlik etdiyi ermənilər Qubaya üz tutdular və orada 2800 nəfər [34] dinc əhalini öldürdülər. 2007-ci ilin aprel ayının 1-də Quba şəhəri Qudyalçay ətrafında 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlərin sübutu olan kütləvi məzarlıq aşkarlandı. Məzarlıqda: 400-dən çox insan cəsədi, onlardan 50-dən çoxu uşaq, 100-dən çoxu qadın, digərləri isə yaşlı kişilər idi [Abışov, (11), s.25].

Nəzərə alsaq ki, XX əsrin əvvəllərində bu şəhərin sakinləri öldürülənlərdən bir qədər çox idi, onda Quba sakinlərinin hamısının ermənilər tərəfindən qətlə yetirilməsini və güllələnməsini təsəvvür etmək

çətin deyil. Cəza dəstəsi o vaxtkı hərbi komissar Q.N.Korqanovun şəxsi rəhbərliyi altında formalaşdırılmışdır və yalnız Daşnaksütyun partiyasına mənsub ermənilərdən ibarət idi. Cinayətlərinə görə cəzasız qalan ermənilər məqsədlərini açıq və yüksək səslə ifadə edirdilər. Qubalılar qarşısında çıxışlarından birində Amazasp belə demişdir: *“Mən erməni xalqının qəhrəmanıyam və maraqlarının müdafiəçisiyəm. Məni cəza dəstəsi ilə birlikdə iki həftə əvvəl burada öldürülən ermənilərin intiqamını almaq üçün göndəriblər. Mənə nizam-intizam yaratmaq və sovet hakimiyyətini qurmaq deyil, öldürülmüş ermənilərin qisasını almaq, Xəzər dənizi sahillərindən Şahdağa qədər olan bütün müsəlmanları məhv etmək və evlərinizi yerlə-yeksan etmək əmri verilib”* [34]. Dinc azərbaycanlıların qətliamı təkcə Bakıda və Qubada deyil, Lənkəran, Salyan, Kürdəmir, Nuxa və Göyçayda da həyata keçirildi. Ermənilər Şamaxıda 30 minə yaxın azərbaycanlını qılıncdan keçirdilər, bütün evləri qarət etdilər [Баберовски, 2010, s.136]. Stepan Lalayevin başçılığı ilə erməni daşnakları 1918-ci ilin mart-aprel aylarında Şamaxıya hücum ərəfəsində 58 kənddə 8027 nəfər azərbaycanlını qətlə yetirmiş, onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq idi [Abışov, (12), s.6]. Quba şəhərində Amazaspın dəstəsi 4 milyon rubl pul, 4,5 milyon dəyərində qızıl, qızıl əşyalar və qiymətli daşlar, 25 milyon rubl [34] dəyərində müxtəlif mal və ərzaq məhsulları oğurladı. S.Şaumyanın tutulması zamanı onun baqajından 80 milyon rubl qızıl tapılıb [*A More Secure World (27)*, s.186].

**4.Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və dövrün siyasi vəziyyəti**

26 may 1918-ci ildə Zaqafqaziya Seymi buraxıldığı barədə qərar qəbul etdi. Mayın 27-də keçmiş Seymin azərbaycanlı deputatları təcili iclasda mövcud siyasi vəziyyəti müzakirə etdilər. Keçmiş Seymin Azərbaycan fraksiyasının üzvləri yekdilliklə sədri M.Ə.Rəsulzadənin seçildiyi Milli Şuranı elan etdilər. Mayın 28-də Milli Şuranın I iclasında 24 səs çoxluğu ilə “Azərbaycanın İstiqlaliyyətini” elan edərək Cənub-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu bəyan edildi [33; Zeynalova, 2004, s.15]. Erməni nümayəndə heyəti dərhal Ararat Respublikasının yaradıldığını elan etdi [Tağıoğlu, 2006, s.26]. Ararat Respublikası 9 min kv. km ərazisi ilə erməniləri qane etmirdi, bu səbəbdən, erməni nümayəndə heyəti Paris Sülh Konfransına (may 1919) keçmiş İrəvan quberniyası, Qars vilayəti, Tiflis quberniyasının cənub hissəsi və keçmiş Yelizavetpol quberniyasının cənub-qərb hissəsi, Osmanlı imperiyasının yeddi vilayəti – Van, Baqeş, Diyarbəkir, Xarberd, Sevastiya, Karin, Trapezund, Kilikiyanın dörd sancağı – Maraş, Sis, Cəlal – Bərəkət, Aleksandretta ilə birlikdə Adananın Ararat Respublikasının tərkibinə daxil edilməsi haqqında

memorandum təqdim etdi [Nuriyeva, 2021, s.178]. “Geniş bir dövlətin quruluşu müəyyən edildi və tələb olundu: Qara dənizdən Aralıq dənizinə, Qarabağ dağlarından Ərəbistan səhralarına qədər Böyük Ermənistan” [Кузнецов, 1997, s.43; Hacıyev, 2003, s.104]. Göründüyü kimi, ermənilərin təkcə Azərbaycana deyil, eyni zamanda, 4-5 dövlətə də ərazi iddiaları var idi.

1918-ci ildə Gürcüstan və Azərbaycanın müstəqilliyini devirmək və ərazilərini işğal etmək məqsədi ilə erməni millətçiləri onlarla müharibəyə başladılar. 4 iyun 1918-ci ildə Osmanlı ilə Azərbaycan Respublikası arasında bağlanmış Sülh və dostluq müqaviləsi erməniləri çıxılmaz vəziyyətə saldı. 12 iyun 1918-ci ildə S.Şaumyanın göstərişi ilə Bakı Sovetinin silahlı qüvvələri Gəncəyə hücum etdilər. 4 iyun 1918-ci il tarixli Osmanlı – Azərbaycan müqaviləsinin 4-cü maddəsinə uyğun olaraq, iyunun 27-dən iyulun 1-dək 4 gün davam edən Göyçay yaxınlığındakı döyüşdə Bakı Sovetinin silahlı qüvvələrini (əsasən erməni qoşunları) birləşmiş Azərbaycan-türk qoşunları məğlub edərək Gəncəyə hücumlarının qarşısını aldı [*Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər*, s.247]. 1918-ci il sentyabrın 15-də Azərbaycan qoşunları Bakı şəhərini hakimiyyətdə olan “Sentrakaspi diktaturası”ndan azad etdi və üç gün sonra Osmanlı qoşunları Azərbaycan qoşunlarına kömək üçün şəhərə daxil oldular. Sentyabrın 17-də F.X.Xoyskinin başçılıq etdiyi Azərbaycan hökuməti Gəncədən Bakı şəhərinə köçdü. 30 sentyabr 1918-ci ildə Birinci Dünya Müharibəsində Osmanlı Türkiyəsi məğlub olan bir tərəf kimi Böyük Britaniya ilə bağladığı Mudros müqaviləsinin şərtlərinə görə Osmanlı imperiyası Cənubi Qafqazdan, o cümlədən, Azərbaycandan qoşunlarını çıxartmağa məcbur oldu [Zeynalova, 2004, s.16; *Mustafa Kamal Atatürk və türkçülük*, s.51]. Bu, Azərbaycan yaşayış məntəqələrini yeni qüvvə ilə dağıdaraq boşaltmaqda davam edən erməni millətçilərinin əl-qolunu açdı. 17 noyabr 1918-ci ildə Ənzəlidən general Tomsonun rəhbərlik etdiyi ingilis qoşunları Bakıya daxil oldu. Onun tələbi ilə Azərbaycan qoşunları Bakıdan çıxarıldı.

**5.Ermənilərin Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti**

Uzun illərdir ki, ermənilər İrəvan, Naxçıvan, Zəngəzur və Qarabağın dağlıq ərazilərini işğal etməyi xəyal edirdilər. Mayın 29-da İrəvanın güzəşt edilməsindən sonra yerdə qalan Azərbaycan torpaqlarını da ələ keçirməyə can atırdılar. 1918-ci ilin yayında türk qoşunları tərəfindən məğlub edilən Andranikin dəstələri Naxçıvan, Zəngəzur və Qarabağın dağlıq hissələrinə hücum etdilər [Zeynalova, 2004, s.16]. Fövqəladə istintaq komissiyasının üzvü Mixaylovun sözlərinə görə, yalnız 1918-ci ilin yaz və payızında Zəngəzurda (gələcəkdə Sovet hakimiyyəti dövründə Zəngəzurun Ermənistan SSR-ə daxil olması təsdiqləndi) 115 Azərbaycan kəndi dağıdıldı və məhv edildi [36; Abdullayev, 2004, s.19]. Təxmini məlumatlara görə, bu kəndlərdə

7.729 azərbaycanlı öldürüldü, onlardan 3.257 nəfəri kişi, 2.276 qadın və 2.196 uşaq idi, 50.000 azərbaycanlı Zəngəzuru tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrildi [37]. Andranikin quldur dəstələri qadınları vəhşicəsinə təcavüz edirdilər, sinələrini, hamilə qadınların qarınlarını kəsirdilər, körpələri süngülərə keçirir və yarı bölürdülər. Bağuli kəndində zorakılıqdan, qətliamdan qaçan 400 azərbaycanlı məscidə toplaşdı və hər tərəfdən mühasirəyə alınaraq son nəfərə kimi yandırıldı [35]. Dağıdılan və zorla boşaldılan Zəngəzur Ararat Respublikasının hakimiyyəti altına keçdi və Azərbaycan 12 min kv. km ərazisini itirdi [Zeynalova, 2004, s.21]. İrəvan quberniyasında 150 min azərbaycanlı böyük itkilərdən sonra ermənilər tərəfindən dağıdılmış evlərini tərk etmək məcburiyyətində qaldı, yüzlərlə kənd Yer üzündən silindi [38]. Daha sonra, RK(b)P XII Qurultayının iclasında (17-25 aprel 1923) İ.V.Stalin Mərkəzi Komitənin təşkilat hesabatına əsasən dedi:

> *“... Mən bir çox yaşayış məntəqələrinin, məsələn, Zəngəzurun adını çəkə bilərəm ki, burada ermənilərin əksəriyyəti əhalinin tatarlardan ibarət olan qalan hissəsini qılıncdan keçirdilər”* [Сталин, 1953, s.251].

Gələcəkdə, “məğlubedilməz dəstə”nin “qəhrəmanlarından” biri – türk xalqlarına qarşı vəhşilikləri ilə məşhur olan Andranik etiraf edirdi: *“Mən Basarkeçər (bu bölgə o zamanlar Azərbaycan ərazisinin bir hissəsi idi, indi isə Ermənistanın tərkibindədir) tatar sakinlərini (azərbaycanlılar) seçim etmədən qətlə yetirərək məhv etdim. Bəzən güllələrə heyfim gəlirdi. Bu köpəkləri məhv etməyin ən əlverişli yolu döyüşdən sonra sağ qalanların hamısını quyulara doldurmaq və birdəfəlik boğmaq üçün üstlərinə ağır daşlar atmaqdır. Mən belə də etdim: bütün kişiləri, qadınları və uşaqları quyuya atdım, quyunu dolduraraq onları öldürdüm”* [Лалаян, 1936. № 2-3.]. Bəs onun, uşaqların çıxarılmış gözlərindən “boyunbağı” düzəltdiyini necə yaddan çıxartmaq olar ... [*Краткая хронологическая Энциклопедия*, 2002, 154 стр., с.3].

**6.Nəticə**

1917-1920-ci illərdə Azərbaycan ərazisində 400 mindən çox azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi. Həmin illərdə azərbaycanlıların sayını nəzərə alsaq, mənzərə dəhşətli idi. Bu vəhşilikləri “öz müqəddəratını təyinetmə”, “muxtariyyət hüququ” və “soyqırım” barədə yüksək səslə bütün dünyaya qışqıran erməni millətçilərinin Azərbaycanlılara qarşı “soyqırım”dan başqa nə adlandırmaq olar.

## ƏDƏBİYYAT

**1.** (1993). *Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər*. Bakı: Elm, 284 səh.

**2.** Abdullayev, E. (2004). *Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində*. Bakı: Təhsil, 216 səh.
**3.** Tağıoğlu, Ə. (2006). *Qədim Ön Asiya və Ön Qafqaz türk tayfaları* (2 cilddə). Ermənilər və gürcülər Qafqaz Oğuz Albaniyası ərazisində. Cild 2. Bakı: Nurlan, 676 səh. http://ek.anl.az/lib/item?id=chamo:18352&theme=e-kataloq
**4.** Hacıyev, İ. (2003). *Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası.* Bakı: Elm, 162 səh.
**5.** Qasımlı, M. (2014). *“Erməni məsələsi”ndən “erməni soyqırımı”na: gerçək tarix axtarışında (1724-1920).* Bakı: Mütərcim, 468 səh.
**6.** Mansurov, A. A. (1991). *Tarixin ağ ləkələri və yenidənqurma.* Bakı: Yazıçı, 224 səh.
**7.** (2006).*Mustafa Kamal Atatürk və türkçülük* (Elmi konfransın materialları) 29 oktyabr 2005-ci il. Bakı: Nurlan, 74 səh.
**8.** Nərimanov, N. (2016). *Məktublar və Qarabağ məsələsinə dair sənədlər. (təkmilləşdirilmiş yeni nəşri)* Bakı, “NURLAR”, 176 səh.
**9.** Nuriyeva, İ. T. (2021). *Ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərinə etnosiyasi yanaşma. Monoqrafiya.* Bakı: Mütərcim, 352 səh.
**10.** Abışov, V. (2017). *Bakıda Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı.* Bakı: Elm, 220 səh.
**11.** Abışov, V. (2017). *Quba qəzasında Azərbaycan xalqına qarşı soyqırımı.* Bakı: Elm, 96 səh.
**12.** Abışov, V. (2017). *Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı.* Bakı: Elm, 120 səh.
**13.** Zeynalova, T. M. (2004). *Azərbaycan milli-dövlət quruculuğu tarixindən (1920-30- cu illər).* Bakı: Elm, 176 səh.
**14.** Балаев, А. (1990). *Азербайджанское национально-демократическое движение 1917-1920 гг.* Баку: Элм, 96 с.
**15.** Баберовски, И. (2010). *Враг есть везде. Сталинизм на Кавказе.* Москва, РОССПЭН, 855 с.
**16.** Гурко-Кряжин, В. (1926). *Армянский вопрос.* Большая Советская Энциклопедия. Т. 3. Москва, (первое издание), 800 с. http://ek.anl.az/lib/item?id=chamo:469026&theme=e-kataloq
**17.** (1957). *Декреты Советской власти.* Москва: Госполитиздат, Т.1, 626 с.
**18.** Кузнецов, В. И. (1997). *Октябрь и международное право.* Международная жизнь. Москва, 11-12, с. 94.
**19.** Ленин, В. И. (1964). *Полный сборник сочинений. 5-е изд. Т. 48.* Москва: Политиздат, 543 с.

**20.** Лазарев, М. С. (1972). *Курдский вопрос в 1891-1917 годах.* Москва: Наука, 472 с.
**21.** Лалаян, А. (1936). *Революционный Восток*. № 2-3.
**22.** (2002). Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.) *Краткая хронологическая Энциклопедия.* Институт по правам человека Национальной Академии Наук Азербайджана. Баку, Элм, 154 стр.
**23.** Ратгаузер, Я. (1927). *Революция и гражданская война в Баку.* Баку, 145 с.
**24.** Сталин, И. В. (1953). *Сочинения. Том 5. (1921–1923).* Москва: Государственное издательство политической литературы, 446 с.
**25.** Чалхулиян, Г. (1905). *Армянский вопрос в России.* Ростов-на-Дону, 475 с.
**26.** Шаумян, С. Г. (1978). *Избранные произведения. Т.2.* Москва, 463с.
**27.** *A More Secure World: Our Shared Responsibility*. High-level Panel on Treats, Cjallenges and Cjange.* Un Doc. A/59/565. 2 December 2004
**28.** *Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики* (АПД УДП АР), ф. 276, оп. 8, д. 429, л. 135.
**29.** *Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики* (АПД УДП АР), ф. 276, оп. 8, д. 498, лл. 14, 15.
**30.** *Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики* (АПД УДП АР), ф. 276, оп. 8, д. 513, л. 8.
**31.** *ARPİİSSA*, F.276, siy.2, iş 20, v. 18-19.
**32.** *Государственный исторический архив Азербайджанской Республики* (ГИА АР), ф. 524, оп. 8, д. 5, л. 27.
**33.** *Государственный архив Азербайджанской Республики* (ГА АР), ф. 970, д.4, л.1-2.
**34.** *Государственный архив Азербайджанской Республики* (ГА АР), ф. 970, оп. 1, ед. хр. 1, л. 51.
**35.** *Государственный архив Азербайджанской Республики* (ГА АР), ф. 895, оп. 1, ед. хр. 18, лл. 1-2.
**36.** *Государственный архив Азербайджанской Республики* (ГА АР), ф. 970, оп. 1, ед. хр. 166, л. 7.
**37.** *Государственный архив Азербайджанской Республики* (ГА АР), ф. 970, оп. 1, ед. хр. 166, л. 8.
**38.** *Государственный архив Азербайджанской Республики* (ГА АР), ф. 970, оп. 1, ед. хр. 216, л. 1

*“Metafizika” Journal*
***2024, vol 7, issue 1, serial 25, pp.132-147***

# 31 марта геноцид, совершенный «Угнеженным Армянским Народом» против азербайджанцев на пути реализации мечты о «Великой Армении»

**Ирада Нуриева***

**Абстракт.** Политика геноцида, проводимая армянскими националистами против азербайджанцев, имеет более чем 200-летнюю историю. Целью этой коварной политики было изгнание азербайджанцев с их исторических земель и создание на этих территориях мифического государства «Великая Армения». 31 марта 1918 года под руководством партии Дашнакцутюн при помощи Красной Армии Советской России азербайджанское население Баку было подвергнуто геноциду. Трупы 57 мусульманок, у которых были отрезаны уши и носы, а также вспороты животы, обнаружены в одном из районов Баку. Армяне бросали людей живыми в колодцы с водой, горящие печи и нефтяные скважины, вспарывали штыками животы беременных женщин, убивали штыками детей, прибивали младенцев к стенам, насиловали женщин, молодых девушек и старух. Людей подвешивали вниз головой за ноги, разрезали пополам мечами, некоторых распинали на деревянных кроватях, заворачивали в ковры и пледы и сжигали заживо, отрезали людям руки и ноги, заставляли есть собственную плоть под штыки. Дикие армянские банды сжигали мусульманских священнослужителей в огне костров, зажженных из Корана, священной книги Ислама. Таково было истинное лицо армянских националистов, громко кричавших о «самоопределении», «автономии» и «геноциде». Армянским зверствам не было предела. Жестокость Андраника, который делал «колье» из детских глаз и других армян, не знала границ. В марте 1918 года до 20 тысяч азербайджанцев в Баку, а в 1917-1920 годах на территории Азербайджана более 400 тысяч азербайджанцев подверглись «геноциду» со стороны армян. Поскольку мир поддается этим злодеяниям, их число увеличивается.

---

* Доктор политических наук, профессор,
кафедры «Гуманитарных наук» Азербайджанского Государственного Университета Нефти и Промышленности; Баку, Азербайджан
E-mail: iradanuri@gmail.com
https://orcid.org/0000-0002-5309-0009
**Цитировать статью:** Нуриева, И. [2024] 31 марта геноцид, совершенный «Угнеженным Армянским Народом» против азербайджанцев на пути реализации мечты о «Великой Армении». *Журнал «Metafizika», 7*(1), c.132-147.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.132-147

**История статьи:**
*Статья поступила в редакцию: 20.01.2024*
*Отправлена на доработку: 12.02.2024*
*Принята для печати: 29.02.2024*

**Ключевые слова**: 31 март - геноцид азербайджанцев, армянская жестокость, «колье» из детских глаз, мифическое государство «Великая Армения»

## 31 March Genocide Committed by the "Oppressed Armenian People" Against Azerbaijanis on the Way of Realizing the Dream of "Great Armenia"

**Irada Nuriyeva***

**Abstract.** The policy of genocide carried out by Armenian nationalists against Azerbaijanis has a history of more than 200 years. The goal of this insidious policy was the expulsion of Azerbaijani people from their historical lands and the creation of a mythical state of "Great Armenia" in these territories. On March 31, 1918, under the leadership of the Dashnaktsutyun party with the help of the Red Army of Soviet Russia, the Azerbaijani population of Baku was subjected to genocide. The corpses of 57 Muslim women, whose ears and noses were cut off, and their bellies were torn open, were found in one of the neighborhoods in Baku. Armenians threw people alive into water wells, burning ovens, and oil wells, ripped apart pregnant women's bellies with bayonets, killed children with bayonets, nailed babies to walls, raped women, young girls, and old women. They hung men upside down by their legs, cut them in half with swords, crucified some of them on wooden beds, wrapped them in carpets and rugs and burned them alive, cut off people's hands and feet, and forced them to eat their own flesh under bayonets. Wild Armenian gangs burned Muslim clerics in the fire of bonfires lit from the Koran, the holy book of Islam. This was the true face of the Armenian nationalists who loudly shouted about "self-determination", "autonomy" and "genocide". The cruelty of Andranik, who made "necklaces" from children's eyes, and other Armenians, knew no bounds. In March 1918, up to 20 thousand Azerbaijanians in Baku, and in 1917-1920 on the territory of Azerbaijan, more than 400 thousand Azerbaijani people were subjected to "genocide" by the Armenians. As the world ignores these atrocities, they are increasing.

**Keywords:** 31 March Genocide of Azerbaijanis, Armenian brutality, "necklace" from children's eyes, mythical "Great Armenia" state

---

* Doctor of Political sciences, professor,
Azerbaijan State Oil and Industry University; Baku, Azerbaijan
E-mail: iradanuri@gmail.com
https://orcid.org/0000-0002-5309-0009

**To cite this article:** Nuriyeva, I. [2024] 31 March Genocide Committed by the "Oppressed Armenian People" Against Azerbaijanis on the Way of Realizing the Dream of "Great Armenia" *"Metafizika" journal, 7*(1), pp.132-147.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i1.132-147

**Article history:**
*Received: 20.01.2024*
*Accepted: 29.02.2024*

## REFERENCES

**1.** (1993). *History of Azerbaijan. From the earliest times to the beginning of the 20th century*. Baku: Elm, 284 pages. (in Azerbaijan)
**2.** Abdullayev, E. (2004). *Nagorno-Karabakh problem at the level of international law*. Baku: Education, 216 pages. (in Azerbaijan)
**3.** Tagıoğlu, A. (2006). *Turkic tribes of ancient Front Asia and Front Caucasus (in 2 volumes).* Armenians and Georgians in the territory of Caucasian Oguz Albania. Volume 2. Baku: Nurlan, 676 pages. http://ek.anl.az/lib/item?id=chamo:18352&theme=e-katalog. (in Azerbaijan)
**4.** Hajiyev, I. (2003). *Heydar Aliyev and restoration of national-historical memory*. Baku: Elm, 162 p. (in Azerbaijan)
**5.** Gasimli, M. (2014). *From the "Armenian question" to the "Armenian genocide": in search of true history (1724-1920).* Baku: Translator, 468 p. (in Azerbaijan)
**6.** Mansurov, A. A. (1991). *White spots of history and reconstruction.* Baku: Yazichi, 224 p. (in Azerbaijan)
**7.** (2006). *Mustafa Kemal Atatürk and Turkism (Proceedings of the scientific conference)* October 29, 2005. Baku: Nurlan, 74 p. (in Azerbaijan)
**8.** Narimanov, N. (2016). *Letters and documents on the Karabakh issue. (new improved edition)* Baku, "NURLAR", 176 p. (in Azerbaijan)
**9.** Nuriyeva, I. T. (2021). *An ethnopolitical approach to the principles of territorial integrity and self-determination. Monograph.* Baku: Translator, 352 p. (in Azerbaijan)
**10.** Abishov, V. (2017). *The March 1918 genocide against the Azerbaijani people in Baku.* Baku: Elm, 220 p. (in Azerbaijan)
**11.** Abishov, V. (2017). *Genocide against the people of Azerbaijan in Guba district.* Baku: Elm, 96 p. (in Azerbaijan)
**12.** Abishov, V. (2017). *Genocide against the people of Azerbaijan in Shamakhi district.* Baku: Elm, 120 p. (in Azerbaijan)
**13.** Zeynalova, T. M. (2004). *From the history of Azerbaijan nation-state building (1920-30s).* Baku: Elm, 176 p. (in Azerbaijan)
**14.** Balaev, A. (1990). *Azerbaijani national democratic movement 1917-1920.* Baku: Elm, 96 p. (in Russian)
**15.** Baberowski, I. (2010). *The enemy is everywhere. Stalinism in the Caucasus.* Moscow, ROSSPEN, 855 p. (in Russian)
**16.** Gurko-Kryazhin, V. (1926). The Armenian question. *Great Soviet Encyclopedia. Vol. 3.* Moscow, (first edition), 800 p. http://ek.anl.az/lib/item?id=chamo:469026&theme=e-kataloq (in Russian)

**17.** (1957). *Decrees of the Soviet government.* Moscow: Gospolitizdat, T.1, 626 p. (in Russian)
**18.** Kuznetsov, V. I. (1997). *October and international law.* International life. Moscow, 11-12, p. 94. (in Russian)
**19.** Lenin, V. I. (1964). *Complete collection of essays. 5th ed. vol. 48.* Moscow: Politizdat, 543 p. (in Russian)
**20.** Lazarev, M. S. (1972). *Kurdish question in 1891-1917.* Moscow: Nauka, 472 p. (in Russian)
**21.** Lalayan, A. (1936). *Revolutionary East.* No. 2-3. (in Russian)
**22.** (2002). Crimes of Armenian terrorist and bandit groups against humanity (XIX-XXI centuries) *Brief chronological Encyclopedia.* Institute for Human Rights of the National Academy of Sciences of Azerbaijan. Baku, Elm, 154 pp. (in Russian)
**23.** Rathauser, J. (1927). *Revolution and civil war in Baku.* Baku, 145 p. (in Russian)
**24.** Stalin, I. V. (1953). *Essays. Volume 5. (1921–1923).* Moscow: State Publishing House of Political Literature, 446 p. (in Russian)
**25.** Chalhuliyan, G. (1905). *The Armenian question in Russia.* Rostov-on-Don, 475 p. (in Russian)
**26.** Shaumyan, S. G. (1978). *Selected works. T.2.* Moscow, 463 p. (in Russian)
**27.** *A More Secure World: Our Shared Responsibility*. High-level Panel on Treats, Cjallenges and Cjange.* Un Doc. A/59/565. 2 December 2004. (in English)
**28.** *Archive of Political Documents of the Office of the Presidential Affairs of the Republic of Azerbaijan* (APD OPA RA), f. 276, op. 8, d. 429, p. 135. (in Russian)
**29.** *Archive of Political Documents of the Office of the Presidential Affairs of the Republic of Azerbaijan* (APD OPA RA), f. 276, op. 8, no. 498, pp. 14, 15. (in Russian)
**30.** *Archive of Political Documents of the Office of the Presidential Affairs of the Republic of Azerbaijan* (APD OPA RA), f. 276, op. 8, d. 513, p. 8. (in Russian)
**31.** *ARPIISSA.* F.276, siy.2, case 20, v. 18-19. (in Azerbaijani)
**32.** *State Historical Archive of the Azerbaijan Republic* (SIA AR), f. 524, op. 8, d. 5, l. 27. (in Russian)
**33.** *State Archive of the Azerbaijan Republic* (SA AR), f. 970, d.4, l.1-2. (in Russian)
**34.** *State Archive of the Azerbaijan Republic* (SA AR), f. 970, op. 1, units hr. 1, l. 51. (in Russian)

**35.** *State Archive of the Azerbaijan Republ*(in Russian)*ic* (SA AR), f. 895, op. 1, units hr. 18, pp. 1-2. (in Russian)
**36.** *State Archive of the Azerbaijan Republic* (SA AR), f. 970, op. 1, units hr. 166, l. 7. (in Russian)
**37.** *State Archive of the Azerbaijan Republic* (SA AR), f. 970, op. 1, units hr. 166, l. 8. (in Russian)
**38.** *State Archive of the Azerbaijan Republic* (SA AR), f. 970, op. 1, units hr. 216, l. 1(in Russian)